Müstəqil ictimai-siyasi, publisistik qəzet № 37 (962) 11 sentyabr 2019-cu il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

CƏFƏR CABBARLI - 120

"DOĞRU BİR SEVGİNİN HÜDUDUMU VAR"

ÜRƏYİMDƏ BİR DİLƏK VAR

Ürəyimdə bir dilək var... Cəfər Cabbarlının Azərbaycan bayrağına yazdığı şeirin bir misrasının bir parçasıdır. Şair Azərbaycan bayrağını bəzəyən rənglərin harmoniyası fonunda qürurlanır, sevgisinin ucalığını, bayrağının əzəmətilə müqayisə edir. Bayrağı mənsub olduğu xalqın ən üstün dəyəri kimi görür və bayrağın özündən çıxış edərək xalqının aldığı adı yazır - İstiqlal!

C.Cabbarlı poeziyasında azadlıq aşiqi idi. Onun demək olar ki, bütün şeirlərinin məğzində Azərbayacn azadlığının mahiyyəti yer alır. Duyğularını Azərbaycan azadlığının tərənnümünə səfərbər edir. Azərbaycan əsgərinə yazdığı marşın qəhrəmanı Azərbaycan əsgəridir. Hətta onun şəhidliyini belə mərdanə bir ölüm kimi - aslan ölümü kimi görür. "Kafkasiyanın dumanlı dağlarında" vuruşan Azərbaycan əsgərinin gücünü misralara gətirir. Çünki Azərbaycan azadlığının yaşarılığını Azərbaycan əsgərinin yenilməzliyində görür:

C.Cabbarlını "Od gəlini"ni yazmağa gətirən də onun azadlıq odu, azadlıq yanğısı idi. Biləgənli Elxanın timsalında Babəkin mübarizə yoluna söz, düşüncə işığı salır. Az qala min yüz illik tarixi bürümüş qaranlığı Elxanın mübariz, odlu çıxışı ilə kəsib doğrayır.

Doğrudur, "Od gəlini" əsəri ərəb işğalına - təkcə Azərbaycan ərazilərinin ərəb işğalçıları tərəfindən qəsb olunmasına yox, həm də azərbaycanlı - türk düşüncəsinin islam fanatizmilə dağıdılmasına qarşı yazılmışdır. Xurafatın, müslüm bir təfəkkürün hakim olduğu cəmiyyət yalnız cismən mövcudluğuna şükür etməlidir - qənaətinə qarşı vuruşurdu C.Cabbarlı. Onun qeyri-adi, sərhədsiz düşüncə aləmi zaman hüdudu tanımırdı. Hətta bu günün, yəni öz dövrünün ən ağrılı hadisələrini belə, min yüz il əvvəlki hadisələrinə belə qovuşdura bilirdi.

"Od gəlini" əsəri müəllifin öz sağlığında dəfələrlə ədəbi mühakimələrə çəkilib. Əsərin dərin, siyasi, ictimai məzmunu bolşevik kafalıların düşüncəsində şübhə ilə qarşılanırdı. Bəlkə, C.Cabbarlı bu əsərini kommunist işğalına qarşı yazıb?.. Bəhanə yeri tapa bilməsələr də, müəllifi müxtəlif yollarda təzyiqlərə məruz qoyublar. Amma əslində, C.Cabbarlı heç də kommunist işğalını ərəb işğalından ayırmırdı.

Milli Cabbarlışünaslığın əsasını qoymuş və bu yolda böyük zəhmətlərilə dəyərli elmi əsərlər araya gətirmiş professor Asif Rüstəmli yazır: "Araşdırmalar təsdiqləyir ki, Azərbaycan ədəbiyyatının qüdrətli söz ustası, Əməkdar incəsənət xadimi C.Cabbarlının ədəbi-bədii irsinin tədqiqat tarixi böyük və zəngindir. Zaman-zaman bu irsin dərindən öyrənilməsi üçün güclənən tədqiqatçı axınının səbəbini Cabbarlı sənətinin möcüzəsində, Cabbarlı sözünün cazibəsində axtarmaq yerinə düşərdi. Onun yaradıcılığının bütün sahələri - poeziyası, nəsri, səhnə əsərləri xalqımızın tükənməz, mənəvi sərvətidir. İctimai-siyasi formasiyaların, zamanın və ədəbi-mədəni mühitin, meyarların və baxışların dəyişmələrinə baxmayaraq, C.Cabbarlıya ümumxalq məhəbbəti, sevgi və maraq dəyişməz olaraq qalır. Çünki onun mənalı həyatı, parlaq şəxsiyyəti və zəngin yaradıcılığı milli şüurun inkişafı, ədəbiyyatımızın və mədəniyyətimizin tərəqqisi, müstəqil dövlətçilik ideyasının möhkəmliyi və dönməzliyi uğrunda mübarizədə mötəbər qaynaq, nümunəvi örnək və milli-mənəvi sərvət olaraq əbədiyaşarılıq qazanmışdır". Bu sözləri Cabbarlı irsinə münasibət kimi öz imzamla da təsdiq etməyə hazıram. Zaman keçdikcə C.Cabbarlı öz xalqına daha yaxın olacaq.

Sonda C.Cabbarlının xatirəsinə həsr etdiyim "**SALAM CƏFƏR BABA**" şeirimlə sözümü bitirmək istərdim:

Salam Cəfər baba, cavan olsan da,
Zəkana baş əyir ruhum, varlığım.
Yaddaşda yaşayıb, yaşa dolsan da,
Sənə heyrətdədir ixtiyarlığım.

Duyan könüllərə ocaq, od olan,
Adında yaşayır sözün göynəyi.
Sənin söz dünyanda təzə-tər qalan
Əbədi örnəkdir sənət köynəyi.

Sənlə açılır səhərimiz də,
«Gün aydın» deyirik ellər bağında.
Qarabağ dərdimiz, kədərimiz də
Yanır səhnəmizin dilək dağında.

Dillərdə ötürsən - gülüşünlə gəl,
İlham bulağımız çağlayar, daşar!
Kimsə doğru deyib məndən çox əvvəl
«Sevilin sevilər, Yaşarın yaşar».

Salam Cəfər baba, cavan olsan da,
Zəkana baş əyir ruhum, varlığım.
Yaddaşda yaşayıb, yaşa dolsan da,
Sənə heyrətdədir ixtiyarlığım.

...Ürəyimdə bir dilək var... Azərbaycanın ərazi bütövlüyünü təmin edək! C.Cabbarlının vəsf elədiyi Azərbaycan bayrağını Vətənin tarixi yerlərində müstəqilliyimizin, azadlığımızın, hərbi, siyasi gücümüzün rəmzi olaraq ucaldaq.

Müasirimiz Cəfər Cabbarlı da bunu istəyir.

Əli Rza XƏLƏFLİ
12.03.2019

Kredo